*AMEA Filologiya və sənətşünaslıq, 2023, № 1* *ISSN 2663-4368*
*Səhifə: 315-319* *E-ISSN 2709-2699*
*http://dx.doi.org/10.59849/2663-4368.2023.1.315*

# Rəssam Əli İsmayılın yaradıcılığında Qərbi Azərbaycan mənzərələrinin təcəssümü

**Xəzər Zeynalov**
Sənətşünaslıq üzrə fəlsəfə doktoru
AMEA Memarlıq və İncəsənət İnstitutu. Azərbaycan.
E-mail: khazar.zeynalov@yandex.ru

**Annotasiya.** Məqalədə tanınmış rəssam Əli İsmayılın Qərbi Azərbaycan təbiətini əks etdirən mənzərələrindən bəhs edilir. Rəssamın yaratdığı ilk mənzərə əsərləri ötən əsrin 80-ci illərinə təsadüf edir. Doğma yurdun gözəlliyini tərənnüm edən rəssam bir sıra rəngarəng tablolar yaratmışdır. Realist dəst-xətt onun əksər rəsm əsərlərinə xasdır.
Rəssamın yaradıcılığının maraqlı cəhəti rəsmlərə milli kolorit verən janr sintezidir. Mənzərə və natürmort janrlarını birləşdirən Ə.İsmayıl azərbaycanlıların milli xarakterini, özünəməxsusluğunu, məişət və həyat tərzini məharətlə əks etdirir. Əli İsmayılın əsərlərində milli mədəniyyəti təcəssüm etdirən rəmzi əşyalara tez-tez rast gəlmək olar. Xalçalar, bəzi xalq məişət əşyaları, bərəkətli torpağın nemətləri olan nar, heyva buna misal ola bilər.
Rəssam bu gün də Qərbi Azərbaycan təbiətinin mənzərələrini əks etdirən rəsmlər çəkir. Belə mənzərələrdən "Qərbi Azərbaycan", "Qərbi Azərbaycan. Son illərdə yaradılan "Vətən nəğməsi", "Qocadağ" və başqalarını göstərmək olar.
**Açar sözlər:** Azərbaycan təsviri sənəti, Qərbi Azərbaycan, Əli İsmayıl, mənzərə, natürmort, rəssamlıq, milli xarakter, Göyçə gölü

**Məqalə tarixçəsi:** göndərilib – 19.05.2023; qəbul edilib – 02.06.2023

# The embodiment of the landscape of Western Azerbaijan in the works of the artist Ali Ismail

**Khazar Zeynalov**
Doctor of Philosophy in Art History
Institute of Architecture and Arts of ANAS. Azerbaijan.
E-mail: khazar.zeynalov@yandex.ru

**Abstract.** The article talks about the landscapes of the famous artist Ali Ismail, which reflect the nature of Western Azerbaijan. The author notes that the reflection of the panoramas of this region is widely substituted in the artist's work. The first landscapes that he created date back to the 80s of the last century. Since then, the artist has created many wonderful paintings, singing the beauty of his native land. Realistic handwriting is characteristic of most of the artist's paintings. At the same time, he often creates lyrical landscapes, reflecting the picturesque corners of Western Azerbaijan.
An interesting feature of the artist's work is the genre synthesis, which gives the paintings a pronounced national flavor. Combining the motifs of landscape and still life, the artist skillfully and uniquely reflects the national character, identity, characteristic of the life and way of life of

Azerbaijanis. In the works of Ali Ismail, one can often see symbolic objects that embody the national culture. Such, in particular, are carpets, some items of national life, gifts of the generous land - pomegranates, quince.
The artist still paints pictures, which depict the views of the nature of Western Azerbaijan. Such are the landscapes “Western Azerbaijan”, “Western Azerbaijan. Song of the Motherland”, “Gojadag” and others created in recent years.
**Keywords:** Fine arts of Azerbaijan, Western Azerbaijan, Ali Ismail, landscape, still life, painting, national character, Geokcha lake

**Article history:** received − 19.05.2023; accepted − 02.06.2023

## Giriş / *Introduction*

Qərbi Azərbaycan mövzusu müasir Azərbaycan incəsənətinin, o cümlədən təsviri sənətin aktual mövzularından biridir. Onun nəzəri və ideya-bədii görüşləri əsasında dövlətimizin güclənməsi, Qarabağın azad edilməsi, tarixi ədalətin bərpası, Qərbi Azərbaycana – dədə-baba torpaqlarımıza qayıdış kimi mühüm ictimai-siyasi, iqtisadi, hərbi, həmçinin mənəvi-əxlaqi və mədəni amillər dayanır. Bütün bunlar müasir sənətşünaslıqda Qərbi Azərbaycan mövzusunun aktuallığını şərtləndirir.

Təsviri sənətdə Qərbi Azərbaycan mövzusu hələlik az işlənilmişdir. Bu sahədə aparılan elmi-tədqiqat işlərinin nəticələri ilkin təşəkkül və formalaşma səviyyəsindədir. Tədqiqatçılar tərəfindən bəzi rəssamların yaradıcılığı barədə müəyyən fikirlər səsləndirilib [1, s.187-188]. Şübhəsiz ki, həmin fikirlərin əsaslandırılmış, elmi-nəzəri konsepsiya əsasında koordinasiya edilməsi daha əhəmiyyətlidir. Qərbi Azərbaycan tarixi-mədəni konsepsiyasının tərkib hissəsi olacaq bu istiqamət hazırda formalaşma prosesindədir [2, s.119-127].

Müasir Azərbaycan təsviri sənətində Qərbi Azərbaycan mövzusunda əsərlər yaradan rəssamların əksəriyyəti əslən həmin bölgədən olan sənətkarlardır. Onların yaradıcılığında Qərbi Azərbaycan mənzərələri, bu diyarın görkəmli elm, ictimai və mədəniyyət xadimlərinin portretləri, həmçinin məişət janrı lövhələri üstünlük təşkil edir. Belə rəssamlardan biri də istedadlı fırça ustası Əli İsmayıldır.

## Əsas hissə / *Main Part*

Əli İsmayıl 1960-cı ildə Qərbi Azərbaycanın səfalı guşələrindən olan Basarkeçər mahalında anadan olmuşdur. O, uşaq yaşlarından rəssamlığa həvəs göstərmişdir. Orta məktəbi bitirdikdən sora Bakıda, Ə.Əzimzadə adına rəssamlıq məktəbinin qrafika bölməsində təhsil almış, sonralar təhsilini o zamankı M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun Rəssamlıq fakültəsində davam etdirmişdir. Əli İsmayıl dəfələrlə respublika və beynəlxalq sərgilərin iştirakçısı olmuşdur. Onun əsərləri müxtəlif ölkələrdə, şəxsi kolleksiyalarda saxlanılır. Əli İsmayıl uzun illərdir ki, pedaqoji fəaliyyət göstərir. O, Azərbaycan Dövlət İqtisad Universitetinin Dizayn kafedrasında dərs deyir.

Rəssamın yaradıcılığı geniş və çoxşaxəlidir. O, çoxsaylı mənzərə, məişət, natürmort və məişət xarakterli tabloların müəllifidir. Aydın, səlis dəst-xətt, zəngin palitra, təbiət lövhələrinə realist baxış, eləcə də milli xarakter və məzmunun qabarıq ifadə olunması rəssamın yaradıcılığının əsas cəhətlərini təşkil edir.

Əli İsmayıl elə rəssamlardandır ki, onun yaradıcılığında Qərbi Azərbaycan mövzusu geniş təmsil olunmuşdur. O, böyüyüb boya-başa çatdığı doğma yurd yerlərinin mənzərələrini böyük həvəslə işləmişdir. Əməkdar incəsənət xadimi, sənətşünas Z.Əliyev bu barədə demişdir: “Əli İsmayıl Əliyevin əsərlərinə baxanda biz ənənə ilə mübarizənin kökündə dayanan realizmə tapındığını görə bilərik. Əli tükənməz potensiala malik

rəssamdır. Aşıq Ələsgər yurdunda göz açan rəssam əsərlərində həmin yurd, vətən həsrətini ifadə etməkdədir. Çox vaxt natürmortu üçüncü-dördüncü dərəcəli janr hesab edirlər. Amma Əli İsmayıl Əliyevin əsərləri göstərir ki, natürmortla da ən ülvi hissləri ifadə etmək olar" [3].

Rəssamın Qərbi Azərbaycan mövzusunda yaratdığı əsərlərin əksəriyyəti yağlı boya, bir qismi isə karandaşla işlənilmişdir. Bu əsərlərdə əks olunmuş əzəmətli, başı qarlı dağlar, çay vadiləri, yaşıl düzlər, dərin dərələr realist və bir qədər lirik-romantik ahəngi ilə diqqəti cəlb edir. "Sarı qaya" (1982), "Kənd axşamı" (1985), "Göl sahilində" (1986), "Kənd mənzərəsi" (1986), "Göyçə ətrafı dağlar" (1986) və "Üçdaş" (1998) tabloları bu qəbildəndir.

Əli İsmayılın Qərbi Azərbaycan mövzusunda yaratdığı ilk mənzərə əsərləri onun təhsil aldığı illərə təsadüf edir. Hələ ötən əsrin 80-ci illərində yaratdığı bir sıra tablolarında o, doğma diyarın mənzərələrini realist üslubda əks etdirib. "Göyçə. Xıdır kompleksi" (1982), "Göyçə qışı. Qoca dağda qoca qış" (1986) kimi tablolarda qış mənzərələri təcəssüm olunub. Hər tərəfin qarla örtüldüyü bu mənzərələrdə Qərbi Azərbaycanın sərt qış fəsli göz önündə canlanır. Ümumiyyətlə, qeyd edilməlidir ki, milli təsviri sənətdə qış mənzərələrinə Qərbi Azərbaycan rəssamlarının yaradıcılığında daha çox rast gəlinir. Xatırlayaq ki, Böyük Qafqaz və Naxçıvanda olduğu kimi, Qərbi Azərbaycanda da qış çox sərt keçir və uzun çəkir. Bəlkə, bunun təsirindəndir ki, həmin yerləri təmsil edən rəssamların yaradıcılığında qış mənzərələrinə geniş yer verilir. Bu yerdə istər-istəməz Bəhruz Kəngərlinin "Naxçıvanda qış", Nadir Əbdürrəhmanovun "Laçın. Qış" kimi mənzərələri yada düşür.

"Göyçə qışı. Qoca dağda qoca qış" tablosunda sərt qış mənzərəsi realist səpkidə işlənilib. Arxa planda ağ örpəyə bürünmüş dağlar, ön planda qarlı düz və çay vadisi əks olunub. Orta hissədə isə kiçik kənd görünür. Ön tərəfdə kənd uşaqları diqqəti cəlb edir. Qarlı qışın şaxtası onlara təsir etmir. Soyuğa öyrəşmiş uşaqlar arxayın şəkildə donmuş çayda açdıqları kəsiyə tilov salmışlar. Onlar həyəcan və həvəslə tilova balıq düşəcəyini gözləyirlər (şəkil 1).

Əli İsmayılın Qərbi Azərbaycan tematikasının maraqlı cəhətlərindən biri də janr sintezidir. Rəssam bir sıra mənzərə tablolarında ön planda natürmort və məişət janrlarına xas olan elementlər yerləşdirməklə əsərlərin daha maraqlı, rəngarəng və orijinal təsir bağışlamasına nail olur. Hesab edirik ki, burada mühüm olan cəhət milli xarakterin ifadə olunmasıdır. Belə ki, Əli İsmayıl milli Azərbaycan məişətini əks etdirən rəmzləri – xalçaları, xarakterik ev əşyalarını, rəmzi məna kəsb edən meyvələri mənzərə janrına daxil etməklə bu mənzərələrin məhz Azərbaycana aid olduğunu təcəssüm etdirir. Onun tablolarındakı xalçalar kompozisiya və rəng xüsusiyyətlərinə görə, Azərbaycan xalça ənənəsini diqqətə çatdırır. Bu xalçaların üzərinə səpələnmiş nar, heyva kimi rəmzi məna daşıyan nemətlər məhz Azərbaycan dünyasını yada salır. Bu mühüm cəhət rəssamın həm sənətkarlıq məharətindən, həm də milli təəssübkeşliyindən xəbər verir. Ümumiyyətlə, doğma torpağın rəngarəng mənzərələrini yorulmadan kətana köçürən rəssamın mövzu və janr dairəsi genişdir [3].

Qərbi Azərbaycanın əsas tarixi-coğrafi rəmzlərindən biri Göyçə gölüdür. Göyçə gölü Əli İsmayılın yaratdığı bir çox mənzərələrdə yer alır. Bu füsunkar göl, onu çevrələyən dağlar, ətrafdakı yaşıllıqlar rəssamın bir çox tablolarında təkrarlanır. "Göyçə ilə bağlı əsərlərin çoxunda Əli İsmayılın göz açdığı torpağa vurğunluğu və sevgi duyulmaqdadır. Belə ki, ilin və günün müxtəlif vaxtlarında yurdun gözoxşayan təbiəti ilə baş-başa qalan rəssam qabarıq görünən gözəlliklə yanaşı, dağlara və çaylara, ağaclara və gül-çiçəklərə hopan, yalnız arifanə baxışla aşkarlanan estetik qaynaqları tamaşaçı üçün mənəvi zövq – qida mənbəyinə çevirə bilmişdir" [2, s.8]. Doğma Azərbaycanın gözəlliklərini vəsf edən mənzərələrlə yanaşı, rəssam natürmort, portret, məişət, illüstrasiya janrlarında da maraqlı kompozisiyalar işləyir. Lakin maraqlı olan budur ki, rəssam bəzən mənzərə ilə natürmortun sintezini yaradır. Əgər Qərbi Azərbaycanın tanınmış rəssamı olan Cabbar Quliyev [4, s.331] öz yaradıcılığında mənzərə ilə portreti uğurla birləşdirirdisə, Əli İsmayıl mənzərə ilə natürmortun maraqlı, özünəməxsus sintezinə nail olmuşdur. Onun bir çox tablolarında arxa planda Göyçə gölü, dağlar, ön planda isə milli məişət və natürmorta xas olan bədii motivlər – xalça, satıl, səhəng, nimçə, şamdan, müxtəlif

meyvələr – nar, alma, həmçinin gül-çiçək və s. təsvir edilmişdir. “Göyçə gölü” (1986), “Göyçə gölü. Üçdaş” (2002), “Çöl çiçəkləri – Göyçə gölü” (2003), “Qərbi Azərbaycan – Vətən nəğməsi” (2018) və başqa tablolar bu qəbildəndir. Rəssam sahillərinə addımbaşı bələd olduğu Göyçə gölünü xəritədə olduğu kimi çox dəqiq təsvir edir. Göyçəli tabloların çoxunda o, gölün qərb sahilindəki çıxıntını – Noraduz (Nərəduz, Nehrədüz) yarımadasını əks etdirməyi xoşlayır. “Könülün hədiyyələri” (2016) tablosunda üstündə dolça, şamdan, həvəngdəstə olan İrəvan xalçası burma-burma irəli gedərək, timsah başını xatırladan Noraduza qovuşur və Göyçəyə doğru aşağı enir... (şəkil 2).

Qeyd olunduğu kimi, Əli İsmayıl Qərbi Azərbaycan mövzusuna yaradıcılığının bütün dövrlərində müraciət edib. Müasir dövrdə də rəssam bu mövzuya dönə-dönə qayıdaraq maraqlı mənzərələr yaradır. Son dövrlərdə o, “Qərbi Azərbaycan” (2015), “Qərbi Azərbaycan. Vətən nəğməsi” (2018), “Qocadağ” (2016) və başqa mənzərə rəsmləri çəkmişdir. Əvvəllərdə olduğu kimi, bu mənzərələrin də ideya-bədii mahiyyətini doğma torpağın gözəlliklərinin təsviri təşkil edir. Bu tablolarda rəssamın vətəndaşlıq mövqeyi aydın əks olunmuşdur.

## Nəticə / *Conclusion*

Əli İsmayılın yaradıcılığının öyrənilməsi, ümumilikdə Qərbi Azərbaycan incəsənətinin tədqiqi baxımından əhəmiyyətlidir. Rəssamın yaradıcılığı barədə müxtəlif fikirlər səsləndirilib, onun əsərlərinə qiymət verilib. Lakin Əli İsmayılın yaradıcılığı bilavasitə Qərbi Azərbaycan mənzərələri müstəvisində bu vaxtadək demək olar ki, nəzərdən keçirilməyib. Hazırkı araşdırma bu mövzuda olan ilk nümunələrdən biridir. Ümid edirik ki, gələcəkdə bu mövzuda tədqiqatlar davam etdiriləcək, həm Əli İsmayılın, həm də Qərbi Azərbaycan mövzusunda əsərlər yaratmış başqa rəssamların yaradıcılığı da əhatəli şəkildə öyrəniləcəkdir.

Son olaraq vurğulayaq ki, Qərbi Azərbaycan təsviri sənəti milli ənənənin inkişafı və ötürülməsi baxımından maraq doğurur. Çünki “sənət ənənəsinin təkamülü milli xarakterin dərindən əks etdirilməsində mühüm rol oynayır” [6, s.27-29]. Əksər Qərbi Azərbaycan rəssamlarının yaradıcılığında bu cəhət özünü aydın büruzə verir. Hesab edirik ki, həm Əli İsmayılın, həm də digərlərinin yaradıcılığı dərindən öyrənilməli, Qərbi Azərbaycan rəssamlıq sənətinin tarixi-bədii inkişaf dinamikası elmi cəhətdən hərtərəfli surətdə araşdırılmalıdır. Hazırda bu, Azərbaycan sənətşünaslığının qarşısında duran mühüm, təxirəsalınmaz və prioritet vəzifələrdən biridir.

## Ədəbiyyat / *References*


1. Alimlər-rəssamlar (tərtib edən X.Zeynalov). – Bakı, 2017.
2. Əli İsmayıl. Gerçəkliyin poetikası (ön sözün müəllifi Z.Əliyev). – Bakı, 2017.
3. Rəssam Əli İsmayıl Əliyevin “Naxışlı Azərbaycan” adlı sərgisi açılıb // https://pia.az/amp/?id=316251
4. Zeynalov, Ə.M. İrəvan xanlığı... Gerçəkliyin aydınlığı. – Bakı, 2016.
5. Алиева, С. Творчество художников Западного Азербайджана // Şərq Ölkələri Beynəlxalq Memarlıq Akademiyası, cild 22, № 2.
6. Байрамов, Т. Традиция: типология искусства и диалог культур. – Баку: Сада, 2019.

# Воплощение пейзажей Западного Азербайджана в творчестве художника Али Исмаила

**Хазар Зейналов**
Доктор философии по искусствоведению
Институт архитектуры и искусств НАНА. Азербайджан.
E-mail: khazar.zeynalov@yandex.ru

**Резюме.** В статье говорится о пейзажах известного художника Али Исмаила, в которых отражена природа Западного Азербайджана. Автор отмечает, что отражение панорам этого края широко представлено в творчестве художника. Первые пейзажи, которые он создал, относятся к 80 годам прошлого века. С тех пор художник создал много замечательных полотен, воспевая красоту родного края. Реалистический почерк характерен для большинства полотен художника. Вместе с тем, он нередко создает и лирические пейзажи, отражая живописные уголки Западного Азербайджана.
Интересной особенностью творчества художника является жанровый синтез, придающий картинам ярко выраженный национальный колорит. Совмещая мотивы пейзажа и натюрморта, художник умело и своеобразно отражает национальный характер, самобытность, свойственные быту и образу жизни азербайджанцев. В работах Али Исмаила часто можно видеть символические предметы, олицетворяющие национальную культуру. Такими, в частности, являются ковры, некоторые предметы национального быта, дары щедрой земли – гранаты, айва.
Художник и сегодня пишет картины, на которых запечатлены виды природы Западного Азербайджана. Таковы пейзажи «Западный Азербайджан», «Западный Азербайджан. Песня родины», «Годжадаг» и другие, созданные за последние годы.
**Ключевые слова:** изобразительное искусство Азербайджана, Западный Азербайджан, Али Исмаил, пейзаж, натюрморт, живопись, национальный характер, озеро Геокча

**Şəkillər**



*Şəkil 1. "Göyçə qışı. Qoca dağda qoca qış". Karton, yağlı boya. 1986.*



*Şəkil 2. "Könülün hədiyyələri". Kətan, yağlı boya. 2016.*